

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 221 (21.631)

23 noyabr 2016-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Amerika Birləşmiş Ştatlarının dövlət katibinin köməkçisinin Avropa və Avrasiya məsələləri üzrə müavini xanım Bridcet Brinki qəbul edib.

Dövlətimizin başçısı xanım Bridcet Brinklə bu ilin yayında ikitərəfli münasibətlər, regional məsələlərlə bağlı apardıqları geniş müzakirələri xatırlayaraq ölkələrimiz arasında uğurlu əməkdaşlığın ABŞ-ın yeni administrasiyası ilə də davam etdiriləcəyinə ümidvar olduğunu bildirib.

ABŞ dövlət katibinin köməkçisinin Avropa və Avrasiya məsələləri üzrə müavini xanım Bridcet Brink ölkəsinin Azərbaycana, bütövlükdə regiona olan güclü dəstəyini qeyd edərək Birləşmiş Ştatların bu istiqamətdə uzun müddət ardıcıl siyasət həyata keçirdiyini vurğulayıb.

Görüşdə Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında əlaqələrin hazırkı vəziyyəti və perspektivləri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları ətrafında geniş fikir mübadiləsi aparılıb.

## 2016-cı ilin yanvar-oktyabr aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı



Muxtar respublikada 2016-cı ilin yanvar-oktyabr aylarında 1 milyard 999 milyon 800 min 800 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,7 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,8 faiz artaraq 4479,8 manata çatmışdır.

* * *

Muxtar respublikada yaradılan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 787 milyon 680 min 700 manat həcmində məhsul istehsal edilmişdir ki, bu da 2015-ci ilin müvafiq dövründəki göstəricini 2,2 faiz üstələmişdir.

* * *

İnfrastruktur quruculuğu çərçivəsində cari ilin yanvar-oktyabr ayları ərzində muxtar respublikada əsas kapitala 824 milyon 480 min 600 manat həcmində investisiya yönəldilmişdir ki, bu da bir il önceki göstəricidən 5,4 faiz çoxdur. Əsas kapitala yönəldilmiş investisiyaların 753 milyon 860 min 300 manatı və ya 91,4 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2016-cı ilin yanvar-oktyabr aylarında informasiya və rabitə xidmətlərinin həcmi 42 milyon 36 min 600 manat olmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,9 faiz çoxdur. Bu müddət ərzində mobil rabitə xidmətlərinin həcmi 34 milyon 977 min manat olmaqla, bir il önceki göstəricini 2 faiz üstələmişdir.

* * *

Qeyd olunan dövrdə 348 milyon 879 min 400 manat həcmində kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur. Bu da 2015-ci ilin müvafiq dövründəki göstəricini 6,4 faiz üstələmişdir. Bu dövr ərzində muxtar respublika üzrə diri çəkidə 18,6 min ton ət, 75,2 min ton süd istehsal edilmiş, 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1,6 faiz, süd istehsalı 1,3 faiz artmışdır.

* * *

Əhali gəlirlərinin artımı davam edir. 2016-cı ilin yanvar-oktyabr aylarında muxtar respublikada əhalinin gəlirləri 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz artaraq 1 milyard 428 milyon 415 min 100 manat, onun hər bir nəfərə düşən həcmi isə 0,1 faiz yüksələrək 3199,9 manat təşkil etmişdir.

* * *

2016-cı ilin yanvar-sentyabr aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 410,3 manat təşkil etmiş və bu göstərici əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,2 faiz artmışdır.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 noyabr 2016-cı il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 56878-ə çatmışdır ki, bunun da 49161-i və ya 86,4 faizi aktiv hesablardır. 2016-cı ilin yanvar-oktyabr aylarında açılmış 13820 bank hesabının 13819-u aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 noyabr 2016-cı il tarixə 1181-ə çatdırılmışdır.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, cari ilin yanvar-oktyabr aylarında muxtar respublikada 358 milyon 987 min 300 Amerika Birləşmiş Ştatları dolları həcmində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın həcmi son bir il ərzində 1,3 faiz artaraq 325 milyon 800 min 200 Amerika Birləşmiş Ştatları dolları, idxalın həcmi 34,5 faiz azalaraq 33 milyon 187 min 100 Amerika Birləşmiş Ştatları dolları təşkil etmiş, 292 milyon 613 min 100 Amerika Birləşmiş Ştatları dolları həcmində müsbət saldo yaranmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmaqdadır. 2016-cı ilin yanvar-oktyabr aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 28 milyon 400 min 100 manat məbləğində kreditlər verilmişdir. Verilmiş kreditlərin 9 milyon 235 min 800 manatı və yaxud 32,5 faizi qısamüddətli, 19 milyon 164 min 300 manatı və yaxud 67,5 faizi uzunmüddətli kreditlər olmuşdur.

* * *

2016-cı ilin yanvar-oktyabr aylarında muxtar respublikada bütün sığorta növləri üzrə daxilolmalar 5 milyon 61 min 400 manat olmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çoxdur.

* * *

Bu dövrdə muxtar respublikaya 328 min 213 nəfər turist gəlmişdir ki, bu da 2015-ci ilin müvafiq dövründəki göstəricidən 4,8 faiz və ya 15137 nəfər çoxdur.

* * *

1 oktyabr 2016-cı il tarixə muxtar respublikada əhalinin sayı bir il öncəyə nisbətdə 4876 nəfər və ya 1,1 faiz artaraq 448040 nəfər təşkil etmişdir.

*Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti*

***Sədərək rayonu bu gün inkişafının yeni mərhələsinə qədəm qoyub. Muxtar respublikamızda nail olunmuş sürətli sosial-iqtisadi inkişaf bu sərhəd yaşayış məntəqəsini də əhatə edib, rayon mərkəzi olan Heydərabad qəsəbəsi müasir şəhər görkəminə qovuşub. Son illər rayonda geniş həcmdə kompleks tikinti-quruculuq tədbirlərinin aparılması bölgənin ayrılmaz həyat ritminə çevrilib.***

## Sərhəd bölgəsində quruculuq işləri davam etdirilir

Həmin tədbirlərin davamı kimi bu ilin aprel ayından başlayaraq Sədərək kəndində rayon Mədəniyyət və Turizm Şöbəsinin inzibati binasının yenidən qurulmasına başlanılıb. Binada şöbə və rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi fəaliyyət göstərəcək, tədbirlər zalı və digər xidməti otaqlar yaradılacaq. İnşaat işləri "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin kollektivinə həvalə edilib.

İş icraçısı Vəli Hüseynovdan aldığımız məlumata görə, binanın vaxtında istifadəyə verilməsi üçün inşaatçılara hərtərəfli şərait yaradılıb, obyekt kifayət qədər texnika və işçi qüvvəsi ilə təmin edilib. İlkin yenidənqurma işləri zamanı zirzəmi ilə birlikdə iki mərtəbədən ibarət olan binaya bir mərtəbə əlavə edilib, dam örtüyü vurulub, fasadın arxitektura quruluşu yenilənib. Hazırda binada suvaq işləri aparılır, fasadın üzlənməsi üçün obyektə tikinti materialları gətirilir. Yenidənqurma işləri başa çatdıqdan sonra ərazidə genişmiqyaslı yaşıllaşdırma işləri aparılacaq, gülkarlıqlar salınacaq, müasir işıqlandırma sistemi qurulacaq. Obyektdə yerli tikinti materiallarından istifadəyə üstünlük verilir, görülən işlər yüksək zövqlə, peşəkarlıqla və müasir memarlıq elementlərindən istifadə edilməklə yerinə yetirilir.

İnşaatçıların əzmkarlığı belə deməyə əsas verir ki, Sədərək Rayon Mədəniyyət və Turizm Şöbəsinin yeni inzibati binası nəzərdə tutulan vaxt ərzində təhvil veriləcək.

✍ Səbuhi HÜSEYNOV

## Orta tibb işçilərinin sertifikasiya imtahanı keçirilib

***Muxtar respublikamızda praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan səhiyyə müəssisələrinin sertifikasiya prosesi davam etdirilir. Naxçıvan Muxtar Respublika Xəstəxanasının elektron zalında keçirilən sertifikasiya imtahanlarının növbəti mərhələsində muxtar respublikanın səhiyyə müəssisələrində çalışan orta tibb işçiləri öz bilik və bacarıqlarını sınayıblar.***

Muxtar respublikanın səhiyyə sistemində sertifikasiya imtahanları bu il kompüterə verilmiş proqrama uyğun aparılır. Bu məqsədlə xəstəxananın yeni binasında yerləşən elektron zaldan istifadə edilir. Elektron zalda server xidməti ilə birgə 31 kompüter qurulub. Kompüter proqrama uyğun olaraq ümumi sual bankından 2 müxtəlif variantda 60 test sualını və 5 klinik tapşırıq sualını seçir. Bu, imtahanların aşkarlıq və şəffaflıq şəraitində keçirilməsini təmin edir. Mərkəzləşdirilmiş qaydada, obyektiv və şəffaf surətdə keçirilən sertifikasiya tibb işçilərinin öz üzərlərində çalışmasına, tibb peşəsinin məsuliyyətini daha dərindən dərk etməsinə imkan yaradır.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində test imtahanı üçün əvvəlcədən suallar tərtib edilərək kompüterə yerləşdirilib. Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsi nümayəndəsinin iştirakı ilə test bankından hər variant üzrə 60 sual seçilərək imtahanda iştirak edən orta tibb işçilərinə təqdim olunub, eyni zamanda yazılı olmaqla müsahibə mərhələsinin də sualları paylanılıb. Cavablandırma qaydaları izah edilib. Məxfiliyin gözlənilməsi məqsədilə müsahibə sual kartlarında imtahan verənin adı, soyadı yox, kod nömrəsi əksini tapıb. Üç saat davam edən imtahanın gedişinə imtahan-nəzarət komissiyası tərəfindən nəzarət olunub. İmtahan suallarının test hissəsi üzrə cavab kartlarının yoxlanması kompüterlə, klinik hissəsi üzrə cavabların qiymətləndirilməsi isə mütəxəssislərin iştirakı ilə aparılıb.

İmtahanlara cəlb olunan 92 tibb bacısından 83 nəfəri növbəti mərhələdə iştirak edib. İmtahan suallarının test hissəsi üzrə 40 və ya daha çox, klinik tapşırıq hissəsi üzrə isə 16 və ya daha çox bal toplamış 55 orta tibb işçisi sertifikasiyadan keçərək 5 il müddətində müvafiq ixtisas üzrə praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququ əldə edib. 28 nəfər isə zəruri həddi keçə bilməyib. Sertifikatlaşdırma imtahanlarında uğurlu nəticə əldə edə bilməyən orta tibb işçiləri ixtisaslarına uyğun hazırlıq kurslarına cəlb olunacaqlar. Onlar altı ay müddətində iş yerləri saxlanılmaqla müvafiq peşə hazırlığı keçəcək, sonra yenidən sertifikatlaşdırma imtahanlarında iştirak edəcəklər.

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti*

Yeniləşən kəndlərimiz



# Dövlət qayğısının yeni ünvanı: Baş Dizə kəndi

## Bu yaşayış məntəqəsi muxtar respublikanın müasirliyə qovuşan kəndləri sırasına qoşulub

***Bu il qədim Naxçıvan torpağının daha bir yaşayış məntəqəsi – Ordubad rayonunun Baş Dizə kəndi də müasirliyə qovuşub. Oktyabrın 28-də burada kənd tam orta məktəbinin, kənd və xidmət mərkəzlərinin yeni binaları istifadəyə verilib. Aparılan quruculuq tədbirləri bu kiçik yaşayış məntəqəsinin sakinlərinə böyük sevinc hissləri yaşadıb. Kənddən keçən Gilançay üzərindəki körpünün təmir edilməsi, istinad divarı tikilməsi, kəndin rabitə, elektrik və qaz xətlərinin yenilənməsi, 620 metr fiber-optik kabelin, 1135 metr müxtəlif tutumlu rabitə, 600 metr elektrik, 6 kilometr müxtəlif diametrli qaz xətlərinin təmir-bərpa edilməsi Baş Dizədə mövcud problemləri aradan qaldırıb.***

Baş Dizədə kənd ağsaqqalı, uzun müddət ictimai təsərrüfatda briqadir işləmiş Sultan Əliyevlə burada aparılan quruculuq işləri barədə söhbət etdik. Sultan kişi dedi:

– Babək rayonunun Məzrə kəndində dostum var. Çoxdan idi ki, görüşmürdük. Bu yaxınlarda dostumu görmək üçün Məzrəyə getmişdim. Gördüklərimdən xeyli sevindim. Gözəl məktəb binası, kənd mərkəzi, təzə yol... Dostum yeniliklərə maraqla baxdığımı görüb dedi:

– Görürsən də bizim kəndimizi...

Səmimi deyim ki, dostum "bizim kəndimizi" xüsusi bir formada dedi. Başa düşdüm ki, mənə xatırlatmaq istəyir ki, gör biz necə kənddə yaşayırıq. Cavabında dedim:

– Bizim kənddə də tikinti işləri aparılır. Bir neçə günə başa çatar. Artıq bu işlər yekunlaşdırılıb. İstəyirəm dostuma sifariş edim, qonaq gəlsin bizə, ona deyim ki, bax gör biz necə kənddə yaşayırıq.

Baş Dizə kənd tam orta məktəbinin direktoru Şükür Həsənov deyir ki, kənddə geniş quruculuq işlərinin aparılması, yeni obyektlərin istifadəyə verilməsi bu yaşayış məntəqəsinin sakinləri üçün həm də onunla əlamətdardır ki, bu tədbir ölkəmizdə dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü ərəfəsində baş tutub. Açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri dedi: "Hər bir ölkənin gələcəyi məktəbdə hazırlanır. Ulu öndərimiz deyirdi ki, ***"Təhsil alan hər bir gənc ölkəmizin gələcəyidir"***. Bu səbəbdən də ölkəmizdə təhsilin inkişafına, məktəb tikintisinə xüsusi diqqət yetirilir, müasir tədris şəraiti yaradılır. Həyata keçirilən tədbirlər imkan verir ki, ölkəmizin bütün bölgələrində gənclər hərtərəfli təhsil alsın, vətənpərvər böyüsün, özlərini müstəqil Azərbaycanın gələcəyinə hazırlasınlar. Baş Dizə kənd tam orta məktəbi də müasir tədrisin tələbləri səviyyəsində qurulmuşdur. Yaradılan şəraitdən səmərəli istifadə edərək şagirdlərə hərtərəfli təhsil vermək, vətənpərvər və dünyagörüşlü gənclər böyütmək, ölkəmizin gələcəyini hazırlamaq isə məktəb kollektivinin qarşısında duran vəzifədir".

Kəndin gələcək perspektivi nəzərə alınaraq tikilmiş 156 şagird yerlik 3 mərtəbəli məktəbdə 13 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, kompüter otağı, müəllimlər otağı, şahmat otağı, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları vardır. Məktəbin kitabxana fondunda 3 mindən çox kitab var. Geniş və işıqlı idman zalı fiziki tərbiyə dərslərinin tədris proqramına uyğun keçilməsinə və şagirdlərin fiziki hazırlıqlarının artırılmasına, kimya-biologiya və fizika laboratoriyaları həmin fənlərin yüksək səviyyədə tədris olunmasına imkan verib. Bu gün məktəbdə 74 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 22 müəllim məşğul olur. Məktəbə muxtar respublikamızın digər bölgələrindən təyinatla gələn gənc müəllimlər də var. Onlardan biri Naxçıvan şəhərindən gəlmiş ibtidai sinif müəllimi Şəhla İsmayılovadır. Şəhla müəllimə təyinatla işə göndərilən müəllim kadrları üçün müəyyən edilmiş bütün güzəştlərdən yararlandığı, onların istifadəsinə müasir tələblərə cavab verən məktəb binası verildiyi üçün minnətdarlığını bildirərək deyir:

– Bir vaxtlar belə məktəb binalarına rayon mərkəzlərində, böyük şəhərlərdə də rast gələ bilməzdin. O dövr üçün müasir sayılan məktəb binalarından tək-tük qalanlarını bugünkü təhsil ocaqları ilə müqayisə etmək olarmı? Bu gün elektron lövhə, kompüter Naxçıvan məktəblərinin ayrılmaz tərkib hissəsinə çevrilib. Həmin texnologiyaların adlarına ancaq lüğətlərdə rast gələ bilərdin. Bu gün ən ucqar kəndlərimiz üçün belə təchizat adi hala çevrilib. Bizim məktəbin açılışında elektron lövhəli sinifdə Naxçıvan Dövlət Tarix Muzeyi ilə əlaqə yaradıldı. 209 təhsil müəssisəsinin iştirakı ilə distant dərs keçildi.

Açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin verdiyi tövsiyələr gələcək fəaliyyətimizdə bizə öz vəzifəmizi yerinə yetirmək üçün böyük stimuldur: ***"Məktəbin kollektivi müasir tədris avadanlıqlarından istifadə edərək qarşıya qoyulan vəzifələri yerinə yetirməli, məktəbdə tədrisin səviyyəsi yüksəldilməlidir"***. Etiraf edək ki, ötən dərs ili məktəb üçün uğurla başa çatmayıb. Bütün qüvvəmizlə çalışırıq ki, 2016-2017-ci tədris ilində bizə göstərilən qayğıya əməli işimizlə cavab verək. İnanırıq ki, buna nail olacağıq.

Məktəbin yaxınlığında istifadəyə verilən yaraşıqlı kənd mərkəzi barədə danışmazdan əvvəl məlumat üçün bildirək ki, Baş Dizə qonşu Sabir Dizə kənd inzibati ərazi dairəsinin tərkibindədir. Sabir Dizədə bir neçə il əvvəl kompleks quruculuq tədbirləri çərçivəsində kənd mərkəzi də istifadəyə verilib. Baş Dizədə kənd mərkəzinin inşa olunması sakinlərin qonşu Sabir Dizəyə getmək problemini həll edib. Belə ki, kənd adamları elə bu mərkəzdə öz problemlərini həll edə bilirlər. Bunun üçün sakinlər adından minnətdarlığını bildirən kənd ağsaqqalı Əsəd Məmmədov son illər kənddə sakinlərin təsərrüfata ürəkdən bağlandıqlarını dedi. Bildirdi ki, öz gün-güzəranını torpaqla quran kənd adamları bu qiymətli sərvətin qədrini bilirlər. Kənddə təsərrüfatın müxtəlif sahələri inkişaf etdirilir. Son illər götürülən kreditlər hesabına kənddə 20 hektardan artıq meyvə bağı salınıb, iri və xırdabuynuzlu heyvanların, arı ailələrinin sayı artırılıb.

Qeyd edək ki, mərkəzdə rabitə evi, kitabxana, polis sahə və baytarlıq məntəqələri, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik və bələdiyyə üçün otaqlar, 40 yerlik iclas zalı yerləşir. Kitabxana fondunda 7655 kitab vardır. Rabitə xidmətinin yaxşılaşdırılması istiqamətində Baş Dizə kəndində mühüm tədbirlər görülüb, mərkəzdə yerləşən rabitə evində poçt bölməsi yaradılıb, elektron avtomat telefon stansiyası quraşdırılıb. Kəndə fiber-optik xətt çəkilib, sürətli internetə çıxış imkanı yaradılıb. Elə mərkəzin həyətində uzun illər əvvəl mənə Aza kənd tam orta məktəbində riyaziyyat dərsi demiş Bağır İsgəndərovla rastlaşıram. Bağır müəllim hazırda təqaüddədir. Onun söhbəti:

– Bir neçə aydır ki, kənddə yox idim. Bakıda yaşayan nəvələrimi görməyə getmişdim. Ancaq burada həyata keçirilən quruculuq işlərindən xəbərim var idi. Doğrudan da, insana qayğı xalqa ən böyük xidmətdir. Buna görə də dövlətimizə təkcə minnətdarlıq etmək azdır, gərək həm də tikilən yeni obyektləri qoruyub saxlayasan. Buna əminəm. Həmkəndlilərim öz yurd yerlərinə bağlı adamlardır. Belələri yaşadığı məkanın həmişə gözəl, yaraşıqlı olmasını istəyirlər.

Rəfael İsmayılov təsərrüfat adamıdır. Limon becərməklə məşğul olur. Evi kənddə yeni istifadəyə verilən xidmət mərkəzinin yaxınlığındadır. Deyir ki, kəndimizə şəhər görkəmi verilib. Bu, bizim hamımızı sevindirir.

Mərkəzdə bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, dərzi, ərzaq və təsərrüfat malları olmaqla, 2 mağaza fəaliyyət göstərir. Mağazada yerli istehsal məhsullarının satışına üstünlük verilir.

Kənddə yeni istifadəyə verilən obyektlərin açılışından sonra sakinlərlə görüşən Ali Məclis Sədrinin dediyi tövsiyə xarakterli sözlərini xatırlamaq yerinə düşər: ***"Kənddə aparılan quruculuq işləri sakinlərin rahatlığına xidmət edir. Baş Dizə kəndində sosial problemlər həll olunub. İnsanların ölkəmizdə həyata keçirilən siyasi xəttə sədaqət göstərməsi, xalq-dövlət birliyi inkişafın əsas səbəbidir. Ona görə də sakinlər yaradılan şəraitdən səmərəli istifadə etməli, təsərrüfatlar genişləndirilməli, tikilənlər, qurulanlar qorunub saxlanılmalı, kənd daha da abadlaşdırılmalıdır".***

# Yeni dövlət proqramı arıçılığın inkişafına təkan verəcək

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" muxtar respublikada bu sahə ilə məşğul olan sahibkarlar və əhali tərəfindən minnətdarlıqla qarşılanıb.***

Dövlət proqramı ilə yaxından tanış olarkən yadıma cari ilin oktyabr ayının 15-16-sı tarixlərində "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən "Arıçılıq məhsulları – bal" festivalı düşdü. Burada görüşüb həmsöhbət olduğum tarix üzrə fəlsəfə doktoru Asəf Orucov bildirdi ki, Naxçıvanda qədim zamanlardan günümüzə qədər təsərrüfatın aparıcı sahələri sayılan əkinçilik və maldarlıqla yanaşı, başqa yardımçı təsərrüfat sahələri inkişaf etdirilib. Belə təsərrüfat sahələrindən biri də arıçılıqdır. Muxtar respublikanın təbii-coğrafi iqlimi, zəngin floraya malik olması arıçılığın geniş yayılmasına imkan verib. Bu sahənin Naxçıvanda nə vaxtdan yarandığı elmə dəqiq məlum olmasa da (çünki arxeoloji qazıntılar nəticəsində bu haqda heç nə aşkar edilməyib), ərazidə vəhşi çöl arılarının və arıçılıqla bağlı coğrafi adların (Ballıqaya, Pətəklik, Pətəkqoyulan) bu gün də mövcud olması burada qədim dövrdən arıçılığın inkişaf etdiyini göstərir.

Naxçıvan Dövlət Universitetinin müəllimi, biologiya üzrə fəlsəfə doktoru, dosent Elsevər Əsədovun da arıçılığın keçdiyi yol barədə maraqlı fikirləri var. Arıçılıqla bağlı bu yazını hazırlayarkən onunla da görüşüb həmsöhbət olduq. Elsevər Əsədova görə, tarixi qaynaqlar göstərir ki, Naxçıvanda arıçılıq vəhşi arı balı toplamaq, meşə arıçılığı və mütərəqqi arıçılıq kimi inkişafın bütün mərhələlərini keçib. Şahbuz rayonundakı Ballıqaya, Ordubad rayonundakı Arıtəpə və digər ərazilər bu yerlərin qədim arıçılıq məskənləri kimi məşhurlaşdığının göstəricisidir.

XIX əsr rus tədqiqatçısı V.Q.Qriqoryevin məlumatlarına görə, həmin yüzilliyin 30-cu illərində Ordubad dairəsində əhalinin əksəriyyəti arıçılıqla məşğul olub. Tədqiqatçı N.N.Şavrov yazırdı ki, Ordubad qəzasında 3500 arı ailəsi saxlanılıb. Həmin dövrdə K.A.Qorbaçev Ordubad ərazisində 2 arı cinsinin olması haqqında məlumat verib.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı Əyyub Abdullayev deyir ki, son illər digər təsərrüfat sahələri kimi, muxtar respublikamızda arıçılığın inkişafına da böyük qayğı göstərilir. Bu da Naxçıvanda arı ailələrinin sayının artırılmasına şərait yaradıb. Əgər muxtar respublikada 2000-ci ildə 12 min 620 arı ailəsi vardısa, hazırda arı ailələrinin sayı 70 mindən çoxdur. Muxtar respublikanın mövcud bitki örtüyü burada 100 mindən çox arı ailəsi saxlamağa imkan verir və onlardan bir il ərzində 2000 tondan artıq əmtəəlik bal toplamaq mümkündür.

Qayıdaq dövlət proqramına. Proqramın qəbul edilməsi hansı zərurətdən yaranıb? Bununla bağlı proqramda oxuyuruq: Dövlət proqramının əsas məqsədi muxtar respublikada yerli və ənənəvi arı cinslərinin yetişdirilməsi, arı ailələrindən yüksək məhsul götürülməsi üçün köçürülmə ərazilərində zoobaytar qaydalarına əməl edilməsi, xəstəliklərə qarşı vaxtında mübarizə aparılması və məhsul istehsalının artırılması ilə əlaqədar tədbirlərin həyata keçirilməsidir.

Arıçılıq təsərrüfatlarında elmi nailiyyətlərin və qabaqcıl təcrübənin tətbiqi üçün sahibkarlar arasında maarifləndirmə işlərinin aparılması, bal və digər arıçılıq məhsullarının emalı və qablaşdırılması müəssisələrinin yaradılması, şan vərəqi hazırlayan və arıçılıq avadanlıqları istehsal edən yeni müəssisələrin yaradılmasının dəstəklənməsi, tələbatdan artıq istehsal edilən arıçılıq məhsullarının ixracının stimullaşdırılması, arı xəstəliklərinin qarşısının alınması üçün zoobaytar tədbirlərin genişləndirilməsi, heyvandarlıq-arıçılıq sahələri üzrə əczaxanaların yaradılmasının dəstəklənməsi bu məqsədə nail olunmasında başlıca vəzifələrdir. Həmin vəzifələrin yerinə yetirilməsi kənd əhalisinin məşğulluğunun artırılmasında mühüm rol oynayacaq.

Dövlət proqramının icrasından muxtar respublika əhalisinin arıçılıq məhsullarına olan tələbatının yerli istehsal hesabına təmin edilməsi, arıçılıq məhsulları istehsalı sahəsinə investisiya qoyuluşunun artımına nail olunması, arı ailələrinin sayının 100 minə çatdırılması, arıçılıq sahəsində mütəxəssislərin hazırlanması kimi mühüm nəticələr gözlənilir.

Dövlət proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planında mütəmadi olaraq 14 istiqamət üzrə tədbirlərin keçirilməsi nəzərdə tutulub. Proqramın icrasında Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər, İqtisadiyyat nazirlikləri, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Dövlət Baytarlıq Xidməti, Dövlət Statistika Komitəsi, Dövlət Baş Sığorta Agentliyi, AMEA Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti, "Naxçıvan Muxtar Respublika Arıçıları" İctimai Birliyinin, yerli icra hakimiyyətləri və bələdiyyə orqanlarının üzərinə mühüm vəzifələr düşür.

Yeni perspektivlər vəd edən bu dövlət proqramı ilə bağlı Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi və "Naxçıvan Muxtar Respublika Arıçıları" İctimai Birliyi ilə əlaqə saxladıq.

Kənd Təsərrüfatı Nazirliyinin baş məsləhətçisi Vəli Novruzov bildirdi ki, dövlət proqramında nazirlik tərəfindən də bir sıra vəzifələrin həyata keçirilməsi nəzərdə tutulub. Yerli arı genofondunun mühafizəsi və arı xəstəliklərinin yayılmasının qarşısının alınması üçün tədbirlərin görülməsi, Naxçıvan şəhərində və rayon mərkəzlərində heyvandarlıq-arıçılıq sahələri üzrə əczaxanaların yaradılması arıçılığın inkişafında mühüm rol oynayacaq. Arıçılıqda yüksək nəticələrə nail olunmasında arıçılıq üzrə mütəxəssislərin hazırlanması da vacib məsələdir. Həmçinin arıçılıq təsərrüfatlarında elmi nailiyyətlərin və qabaqcıl təcrübənin tətbiqi barədə sahibkarların məlumatlandırılması, yaşıllaşdırma işlərində balyığma mənbəyi hesab olunan ağac və kol əkinlərinin genişləndirilməsi, muxtar respublikada balyığma mənbələrinin aşkar edilməsi, yem bitkilərinin çiçəklənmədən sonra biçilməsinə nəzarətin təşkili də nazirlik qarşısında duran vəzifələrdir.

"Naxçıvan Muxtar Respublika Arıçıları" İctimai Birliyinin sədri Vaqif Məmmədov deyir ki, muxtar respublikanın arıçıları bu sahənin inkişaf etdirilməsinə qayğını hələ 2008-ci ildə görüblər. Həmin il adıçəkilən ictimai birlik yaradılıb. Bu birlik muxtar respublika arıçıları üçün metodik mərkəz rolunu oynayır. Müntəzəm olaraq arıçılar bir araya gələrək arıçılığın inkişaf etdirilməsi üçün müasir texnologiyaları öyrənir, fikir mübadiləsi aparırlar.

Vaqif Məmmədovun sözlərinə görə, bu gün muxtar respublikada 70 mindən artıq arı ailəsi var. Regionda 4 mindən artıq insan 20-dən çox arı ailəsi saxlayır. Proqramda arıçıların maarifləndirilməsi qarşıya başlıca vəzifə kimi qoyulub. Bunu nəzərə alaraq Naxçıvan şəhərindəki peşə məktəbində bu sahəyə maraq göstərən gənclər üçün kurs təşkil edilib. Gələcəkdə bu kursların fəaliyyəti davam etdiriləcək, kurslara muxtar respublikada arıçılıqla məşğul olan insanlar cəlb ediləcəklər. Yaradılan şərait belə deməyə əsas verir ki, qarşıya qoyulan vəzifələri yerinə yetirə biləcəyik.

Bir neçə arıçı ilə də görüşdük. Ordubad rayonunun Bist kəndində yaşayan Tahir Tahirov uzun illərdir ki, arıçılıqla məşğul olur. Deyir ki, mövsüm vaxtı arı ailələrini muxtar respublikanın ucqar yaşayış məntəqələrinə aparır. Belə ünvanların təmiz havası, suyu, gül-çiçəyi keyfiyyətli bal istehsalında mühüm rol oynayır. Şahbuz rayonunun Sələsüz kənd sakini Kamal Məmmədov isə bildirir ki, arı çox zərif məxluqdur, diqqətcillik, qayğı istəyir. Onun məhsulu isə hər dərdin dərmanıdır, təbabətdə geniş istifadə olunur. Bir çox xəstəliklər balla müalicə edilir. Bundan əlavə, baldan məişətdə şirniyyat məhsullarının hazırlanmasında da geniş istifadə olunur. Bu gün də, keçmişdə də baldan hazırlanmış Ordubad paxlavası, ballı tort hər yerdə şöhrət qazanıb.

Naxçıvan şəhərində həmsöhbət olduğum bir neçə sakin bu proqramın vaxtında qəbul edilmiş dövlət sənədi olduğunu yüksək dəyərləndirdi. Namiq Fərzəliyev və Mətanət Cabbarova adıçəkilən proqramın muxtar respublikada daha keyfiyyətli bal məhsullarının istehsalının həcminin artırılmasına stimul olacağını dilə gətirdilər. Bildirdilər ki, bu, insanların seçim etməsinə, daha keyfiyyətli məhsul almasına imkan verəcək.

Səhifəni hazırladı: ✍ Muxtar MƏMMƏDOV

# Nicolletta Herman: Naxçıvan təcrübəm mənim Qafqaz regionuna heyranlığımı artırdı

Naxçıvan Muxtar Respublikasının turizm sektoru Azərbaycan Respublikasının mədəniyyət diplomatiyası və milli irsinin əsas komponentlərindən biridir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun başçılıq etdiyi muxtar dövlətin əsas prioritetlərindən biri Naxçıvan Muxtar Respublikasında turizm sənayesini inkişaf etdirməkdir. Qeyd etmək lazımdır ki, Naxçıvanın tarixi abidələri, füsunkar təbiəti, duz şaxtaları və Naxçıvan şəhəri ilə Ordubad rayonunu birləşdirən magistral yolun kənarındakı iri qayalıqlarda Holivud filmlərindəki səhnələri əks etdirən təbii fenomenlər əraziyə səfər etmək istəyən turistlər üçün mükəmməl bir məkandır. Bununla yanaşı, avropalı turistlər Naxçıvanda İslam incəsənəti və memarlığının parlaq nümunələrini görə bilərlər. Naxçıvan Qafqaz memarlıq məktəbinin beşiyi və bir çox məşhur memarların vətənidir. O memarların fəaliyyəti bir çox Avropa paytaxtlarının inkişafına təsir etmişdir.




Romadakı La Sapienza Universitetinin professoru ***Biancamaria Scarcia Amorettinin*** fikrincə, Naxçıvan mühüm memarlıq xəzinələri və bu günə qədər qorunub saxlanılan möhtəşəm abidələri ilə İslam incəsənəti və sivilizasiyası ilə maraqlanan alimlər və ziyarətçilər üçün mühüm regiondur.

Professor ***Amoretti*** həmçinin qeyd edir ki, Naxçıvan çox da böyük olmayan ərazini əhatə edir və orta əsr türk-müsəlman abidələri ilə zəngindir. Həmçinin həftəlik ucuz qiymətə İstanbuldan Naxçıvana təyyarə reysləri həyata keçirilir. Naxçıvan Muxtar Respublikasında XI-XIV əsrlərdə tikilmiş qeyri-adi abidələr başər sivilizasiyası üçün çox önəmlidir. Sevindirici haldır ki, Naxçıvan qonşu ölkələr Türkiyə, İran və Gürcüstanla yaxşı əlaqələrə malikdir və bu əlaqələr insanların əraziyə avtobus və avtomobillə səfərlərini asanlaşdırır. Naxçıvanda daxili təhlükəsizlik çox yaxşı təmin olunub. Bu vəziyyət ərazidə turizmin inkişafına, Azərbaycanın mədəniyyət diplomatiya siyasəti layihəsinin möhkəmlənməsinə köməklik göstərəcək.

İtaliyalı professor ***Gianroberto Scarciyanın*** fikrincə, Gürcüstan, İran, Türkiyə və Bolqarıstan daxil olmaqla regional turizm ekspedisiyası üçün Azərbaycan başlanğıc nöqtə ola bilər. Sonda qeyd etmək lazımdır ki, Naxçıvandakı təcrübəmizə əsasən Azərbaycanın bu regionu öz kəşfini gözləyir və heç kimi məyus etməyəcək.

Norveçdən olan turistlərin fikrincə, Naxçıvan gözəl xatirələr yaradan bir məkandır. 2011-ci ilin may ayında 4 tanınmış norveçli turist və alim Naxçıvan Duzdağ Fizioterapiya Mərkəzində, Xalça və Tarix muzeylərində olmuşlar. Naxçıvan səfərlərindən öncə norveçlilər Bakı, Kiş, Şəki və Gəncədə də səfərdə olmuşlar. Onların Naxçıvan xatirələri xüsusidir: "Coğrafi nöqteyi nəzərdən bu ərazi xüsusi əhəmiyyətə malikdir. Naxçıvanın qərb hissəsində biz Ağrı dağını, cənub hissədə isə İran sərhədində Araz çayını görə bildik. Bu mənzərə bizim üçün ekzotik oldu. Tarixi İpək Yolu və xüsusilə bu tarixi ticarət marşrutu ilə bağlı Qarabağlar abidəsi bizi çox heyran etdi. Bundan əlavə, Nuh Peyğəmbər haqqında olan hekayəni dinləmək və peyğəmbərin dəfn olunduğu türbəni görmək bizim üçün xüsusi əhəmiyyətə malik oldu. Nuh Peyğəmbərin hekayəsi müsəlman və xristianlar üçün eynidir. Biz bir neçə muzeydə olduq, Xalça Muzeyi daha çox marağımıza səbəb oldu".

İsveçrəli turist xanım ***Nicolletta Herman*** Naxçıvan barədə öz təəssüratlarını "Foreign Policy News" qəzeti ilə bölüşüb. Xanım Nicolletta Naxçıvan təcrübəsinin unudulmaz olduğunu və Qafqaz bölgəsinə olan heyranlığını ifadə edərək yazır: "Naxçıvana enərkən gözəl mənzərə ilə qarşılaşdım! Nuhun gəmisini zədələmiş dağ silsilələri ilə birləşən Haçadağı görməkdən zövq aldım. Bakıdan Naxçıvana təyyarə ilə səfər edən hər kəs gərək təyyarədə pəncərənin qarşısında əyləşsin və təyyarə enərkən qətiyyən yatmasın. Bizim Naxçıvan, daha dəqiq desək, muxtar respublika haqqında ilk təəssüratımız olduqca müsbətdir: küçələr və binalar qərb şəhərini xatırladır. Müxtəlif tikililər, şübhəsiz, yenə də Azərbaycanın keçmişinin şahididir. Naxçıvan insanı əsəbiləşdirən avtomobil siqnalları, tələsən avtomobillər və avtomobil xaosundan uzaqdır. Eləcə də hara baxsaq nə tullantı, nə də həddindən artıq sıx olan evlər görmürük. Yoxsa biz Qafqazın İsveçrəsinə gəlmişik?"

Naxçıvandakı tədqiqatları ilə bağlı xanım Herman qeyd edir: "NATİG MMC Tərcümə və Turizm Mərkəzinin işçisi Həsən ilə üç gün ərzində biz Naxçıvan Muxtar Respublikasını tədqiq etdik. Görünür ki, bu mühüm əraziyə az sayda turistlər səfər edir. Lakin ərazi landşaft təbiətsevərlərin və fotoqrafların arzuladığı yerdir. Böyük şəhərlərin izdiham və çaxnaşmasını xoşlayanlar başqa yer axtarsınlar. Bələdçimiz və sürücümüz Həsən bizə ən vacib abidələri, həmçinin Nuh Peyğəmbərin məqbərəsini və əzəmətli məscidləri göstərdi. Duzdağ Fizioterapiya Mərkəzi bizdə xoş təəssürat yaratdı. Şaxtada ailələr gecə qalaraq müalicə alırlar. Duzla zəngin şaxtadakı hava astma və bir sıra tənəffüs yolları xəstəliklərinə qarşı yaxşı nəticə verir. Böyük məmnuniyyətlə mən şəxsən burada bir gecə keçirmək istərdim".

Xanım Hermanın fikrincə, Naxçıvanın gözəl təbiəti sanki bütün insan əli ilə yaradılan zənginlikləri geridə qoyur. Qum təpələrinin gözəllikləri ilə rəqabət aparan gilli təpələr və təkrarolunmaz rəng oyunu ilə lovğalanan dağ silsilələri, aydın göllər, landşaft arası ilə qıvrılan çaylar bizi hər dəqiqə şəkil çəkməyə vadar edir. Ecazkar dağ landşaftlarının arası ilə Naxçıvanın cənub-şərqindəki Ordubada səfərimiz yaddaqalan oldu. Fotokameram rahatlıq tapmırdı. Naxçıvanda az müddət qalmağımız oradakı mənfi hal idi. Biz burada məmnuniyyətlə daha artıq qalardıq.

Naxçıvan Muxtar Respublikası klassik və orta əsr şəhərinin vətənidir. Tanınmış orta əsr memarı və Naxçıvanın orta əsr heykəltəraşlıq məktəbinin banisi olan Əcəmi Naxçıvaninin doğulduğu yerdir. Naxçıvan Azərbaycan Respublikasının tərkibində olan tarixi və əhəmiyyətli muxtar respublikadır. Ötən iyirmi il ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun rəhbərliyi altında dini memarlıq, arxeoloji ərazilərin, təbii abidələrin qorunması və qalaların bərpası istiqamətində diqqətəlayiq addımlar atılmışdır. Bunlar Azərbaycan Respublikasının zəngin mədəniyyəti və milli quruculuq tarixinə aydın nümunədir.

Azərbaycanın qərb regionu olan və başəriyyət-sivilizasiya beşiyi sayılan Naxçıvanda bu günədək qorunan memar Əcəminin əsərləri yeni heykəltəraşlıq inciləri formalaşdırmaqla bərabər, Avropa heykəltəraşlıq məktəbləri üçün də yeni standartlar müəyyənləşdirmişdir. Naxçıvan Qafqazın digər regionları ilə müqayisədə daha qədim və müasir tarixi qoruyub saxlayır, həmçinin Xəzər regionu və onun hüdudlarından kənarda iqtisadi inkişafa töhfə vermiş çoxlu sayda dünyaca məşhur alimlərin, iqtisadçıların, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov kimi uzaqgörən dövlət xadimlərinin və nüfuzlu memarların vətənidir. Ermənistan tərəfindən əraziyə 20 ildən artıqdır tətbiq olunmuş blokada və baş vermiş digər tarixi faciəvi hadisələrə baxmayaraq, Naxçıvan iqtisadi cəhətdən inkişafa nail olmuş və Avrasiyanın kəsişməsində olan şəhər mərkəzlərinə təsir edərək dünyanı öz möhtəşəm qalaları, dini memarlığı və turizm potensialı ilə heyrətləndirir.

**Peter TASE**
**21.11.2016**
**Amerika Birləşmiş Ştatlarının**
**"Foreign Policy News" qəzeti**

***Sayca getdiyim onlarla kitabxanadan birindəyəm. Bu, doğrudur ki, bütün obyekt və müəssisələr həyata keçirdiyi işə uyğun olaraq dizayn edilir, orada həmin işin nəfəsi duyulan ab-hava yaradılır. Tabii ki, bu ənənəyə kitabxanalarda da rast gəlirik. Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanasının qapısından içəri keçdiyimiz zaman ilk olaraq kitabxananın internet saytı qeyd edilmiş vərəqdən hiss olunur ki, bura digərlərindən bir qədər fərqlənir. Kitabxanaya daxil olan oxucu girişdə yerləşdirilmiş qurğu vasitəsilə əvvəl kitabların kataloqu ilə tanış olur və onun vasitəsilə lazımi ədəbiyyatları axtarıb tapır. Oxuculara müasir formada xidmət göstərən bu kitabxana haqqında məlumatlanmağa tələsirəm.***





# Açılan nurlu sabahların sirrini kitablarda axtaraq

## *Naxçıvan Dövlət Universitetinin kitabxanasından reportaj*

Kitabxananın direktoru Fariz Əhmədov bildirir ki, kitabxanalar öz fəaliyyətləri ilə bağlı, əsasən, 3 vəzifəni yerinə yetirirlər: informasiya daşıyıcılarını əldə etmək, kitabxana fondlarını yaratmaq və qaydaya salmaq, kitabxanada toplanmış informasiya daşıyıcılarından istifadəni təşkil etmək.

Müsahibim deyir ki, tarixən kitabxana fondları mədəniyyətin, təhsilin, biliyin qızıl fondları kimi qiymətləndirilib, onların əsas daşıyıcıları hesab edilmiş kitabxanalar isə elmi kəşfləri, intellektual nailiyyətləri, cəmiyyətin yaratdığı bütün informasiya daşıyıcılarını gələcək nəsillərə çatdıran mühüm mədəniyyət mərkəzi kimi səciyyələndirilib.

Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanasında oxuculara yüksək səviyyəli xidmət göstərilir. Ona görə də ildən-ilə oxucuların sayı artır. 1968-ci ildə 370 kitabla fəaliyyətə başlayan kitabxanada hazırda 160 mindən çox fondla 15 mindən artıq oxucuya xidmət göstərilir. Hər gün isə oxucular tərəfindən orta hesabla 200-ə yaxın kitabdan istifadə olunur.

Kitabxanada "Ədəbiyyatın elmi kataloqlaşdırılması", "Kitabxana proseslərinin avtomatlaşdırılması", "Komplektləşdirmə və kitabişləmə", "Xidmət və biblioqrafiya" olmaqla, 4 şöbə fəaliyyət göstərir.

Kitabxana ölkəmizdə fəaliyyət göstərən belə mədəniyyət müəssisələri ilə yanaşı, İran Milli Kitabxanası, Rusiya Dövlət Kitabxanası, Misirin İsgəndəriyyə Kitabxanası başda olmaqla, 20 ölkənin 35 kitabxanası ilə beynəlxalq informasiya mübadiləsi aparır.

2004-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə açılışı olan universitet kitabxanasının binası 2013-cü ildə yenidən təmir edilərək Elektron kitabxana adını alıb. Elektron kitabxana fasiləsiz mütaliə üçün lib.ndu.edu.az ünvanında öz saytını yaradıb.

Öyrənirəm ki, kitabxananın birinci mərtəbəsində ictimai-siyasi elmlərə aid 10 mini xarici, 20 mini Azərbaycan dilində olmaqla, 30 minə yaxın ədəbiyyat yer alıb. Buradakı oxu zalında əyləşən Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin Beynəlxalq münasibətlər ixtisası üzrə dördüncü kurs tələbəsi Rəhim Nəcəfovla həmsöhbət oluruq:

– Bədii ədəbiyyatı çox sevirəm. Ancaq düzünü deyim ki, çox nadir hallarda belə kitabları əldə etmək üçün kitabxanalara üz tuturam. Çünki bədii ədəbiyyat nümunələrini çox yerdən asanlıqla əldə etmək mümkündür. Elmi kitablar isə əksinə, onların tapılması bir qədər çətindir və qiymətləri də əlverişli deyil. Buraya ilk dəfə qrup yoldaşımın məsləhəti ilə gəldim. Axtardığım ədəbiyyat kitabxana fondunda olmadığından işçilər kitabxananın direktoru Fariz Əhmədova müraciət etməyimi məsləhət gördülər. O, əməkdaşlıq etdikləri bəzi kitabxanalarla əlaqə saxlayaraq lazım olan ədəbiyyatı tapmağıma kömək etdi. Oxucuların tələbatı və istəyinə xidmət edən bu kitabxanadan, inanıram ki, əliboş çıxan oxucu olmaz.

İkinci mərtəbədə dəqiq və texniki elmlərə dair ədəbiyyatlar yer alıb. Belə ki, oxuculara 15 minə yaxın ədəbiyyatdan istifadə etmək imkanı yaradılıb.

Kitabxananın üçüncü mərtəbəsində yerləşən ədəbiyyatşünaslıq fondunda 90 minə yaxın kitab var. Burada ali təhsil müəssisəsinin Tarix-filologiya fakültəsinin Tarix ixtisası üzrə birinci kurs tələbəsi Altay Cəfərli ilə söhbətləşirik:

– Ədəbiyyatçı ailəsində dünyaya göz açdığımdan bu sahəyə böyük marağım var. Daha çox dünya klassik ədəbiyyatı incilərinə maraqlıyam. Həmin ədəbiyyatları tapmaq üçün Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanasına da müraciət edirəm.

Dördüncü mərtəbədə yaradılmış xarici ədəbiyyat fondunda isə 15 min ədəbiyyat istifadədədir. Tarix-filologiya fakültəsinin Muzeyşünaslıq ixtisası üzrə üçüncü kurs tələbəsi Sədayə Qurbani ilə söhbətləşib burada axtardığı ədəbiyyatı soruşuruq.

– Əvvəldən bu kitabxanadan istifadə etsəm də, xarici ədəbiyyat fondundan yararlanmağa bir neçə aydır ki, başlamışam. Rus dili üzrə hazırlıq kursuna gedirəm və bu xarici dili öyrənməyi qarşıma məqsəd qoymuşam. Buna görə də vaxt tapdıqca buraya üz tutur, lüğətlərdən, eyni zamanda rus dilində olan bəzi vəsaitlərdən istifadə edir, mətnlər tərcümə edərək kursda öyrəndiklərimi daha da təkmilləşdirirəm.

Kitabxananın elektron informasiya zalı 19 kompüterlə universitetin bütün tələbə və müəllim heyətinə, bura müraciət edən digər oxuculara xidmət göstərir. İnternetdən istifadə imkanları məhdud olan bir çoxları buraya gələrək sosial şəbəkələr istisna olmaqla, axtardıqları materialları internet vasitəsilə əldə edə bilərlər. Universitetdə təhsil alan əcnəbi tələbələr mütəmadi şəkildə kitabxanaya üz tutur, buranın ödənişsiz internet imkanlarından yararlanırlar.

Dövri mətbuat fondunda qəzet və jurnalların nüsxələri saxlanılır. Kitabxana 35 adda qəzet və jurnala abunə yazılıb, 170 adda müxtəlif dillərdə jurnal isə kitabxanaya hədiyyə olunub.

Depazitar fondunda isə tələbat az olan kitablar toplanır, daha çox istifadə edilən, gündəmdə olan ədəbiyyatlar önə çıxarılır. Burada 13 minə yaxın elmi, tarixi və bədii ədəbiyyat saxlanılır.

... Bu gün Azərbaycan gəncliyinin mütaliəyə marağı necədir? Fərq etməz, internet üzərindən, yaxud da əyani şəkildə, əsas odur ki, kitab oxuyur, onlardan nəsə axtarıb tapır, dünyagörüşlərini formalaşdırır, bilik çərçivələrini genişləndirirlər. Bu, çox sevindirici haldır. Keçmişə qısa nəzər salıb onu bu günümüzlə müqayisə etsək, görərik ki, o zamandan indiyəcən saymaqla bitməyəcək qədər çox şey dəyişib. Mövzumuz kitablar və kitabxanalar olduğundan bu sahədə müqayisələrə yer verək. Məsələn, keçmişdə kitabların sayı çox məhdud idi, lakin indi istifadəmizə verilən kitabların sayı kifayət qədərdir. Nəinki Azərbaycan ədəbiyyatı, hətta dünya ədəbiyyatı incilərinin nümunələri də xidmətimizdədir.

Deyilənə görə, sual da bilikdən doğar, cavab da. Doğrudur, bilməmək eyib deyil, soruşmamaq eyibdir, lakin bəzi məqamlarda cavab və ən əsası da həmin sual üzərində müzakirələr aparmaq üçün verdiyimiz sual haqqında cüzi də olsa, məlumatımızın olması şərtdir. Əks halda, üzvü olduğumuz cəmiyyətdə özümüzə layiqli yer tuta bilmərik.

*Necə ki insan dəyişir, eləcə də insan psixologiyası da dəyişib inkişafetmə təkamülünü yaşayır və bu dəyişim qismən də olsa, kitablara sığınır. Ümumiyyətlə, mütaliənin faydaları saymaqla bitməz. Oxuduğumuzdan nəsə anlaya, nəticə götürə bilmişiksə, deməli, düşündüyümüzdən də çox şey qazanmışıq. Kitablar insanların şüurunu inkişaf etdirir, onlara, bir növ, ağla qaranı bir-birindən ayırd etməyi öyrədir və gələcəkdəki planlarına, açılan sabahlarına bilavasitə öz təsirini göstərir. Açılan nurlu sabahların sirrini kitablarda axtarmaq necə fikirdir?*

**Fatma BABAYEVA**

## Sələflər və xələflər – Haqverdiyevlər



***Sənət bəzən nəsilliklə, bir ailənin daxilində, qiymətli bir nəsnə kimi böyükdən kiçiyə ötürüləndə bu məfhumun uzun illər yaddaşlarda yaşaması, davam etməsi üçün əsas qayəyə çevrilir. Təməli bu cür qoyulan sənət ənənəsinin bəhrəsi hər kəsin hörmətini və sevgisini qazanmaq olur. Nəticədə, hər hansı bir sahədə mükəmməl sənət ənənəsi ilə bərabər, "yaxşı ustad-şəyird münasibəti" də formalaşır.***



Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında uzun illər aktyor kimi fəaliyyət göstərən Xalq artisti Əyyub Haqverdiyev də öz sənətini övladına miras qoyan sənətkardır. Xalq artistinin səhnə fəaliyyəti Naxçıvan teatrının peşəkar kollektiv kimi yeni formalaşdığı dövrə – 1930-cu illərə təsadüf edir. 19 yaşından taleyini teatra bağlayan Əyyub Haqverdiyev 1911-ci ildə Naxçıvan şəhərində doğulub. Yaxşı musiqi duyumu, cəlbedici zahiri görkəmi, səhnəyə olan vurğunluğu onun teatra gəlişində mühüm rol oynayıb. O zaman səhnəyə qoyulan əsərlərin mövzusu dövrə uyğun, sosialist cəmiyyətinin mahiyyətini özündə əks etdirən əsərlər olsa da, hələ də milli ruhu özündə yaşadan rejissorlar tarixi mövzulara, klassik əsərlərə müraciət edir, bir-birindən maraqlı tamaşalar hazırlayırdılar. Həmin illərdə Əyyub Haqverdiyev gənc olmasına baxmayaraq, rejissorların etimadını doğruldub, bir-birindən maraqlı komik və dramatik rollar oynayıb.

Oynadığı rolları o qədər ciddi ifa edirdi ki, hətta mizanlarda bir addımı belə, artıq atmırdı. Rejissorun tapşırıqlarını çox ciddi şəkildə yerinə yetirir, öz improvizələri ilə hamını özünə valeh edirdi. Onun obrazlar qalereyasında 200-ə yaxın rol var. Üzeyir Hacıbəyovun "O olmasın, bu olsun"unda Məşədi İbad, "Arşın mal alan" əsərində Vəli, Süleyman Rüstəmin "Durna" komediyasında Dursun, Cəfər Cabbarlının "Almaz" pyesində Mirzə Səməndər, "Od gəlini"ndə Aqşin, Sabit Rəhmanın "Toy" komediyasında Surxay, Səməd Vurğunun "Vaqif" dramında Kürd Musa, Şekspirin "Hamlet"ində Laret və onlarla obraz onun ifasında səhnə həyatı yaşayıb. 1948-50-ci illərdə Naxçıvan MSSR Ali Sovetinin deputatı seçilən sənətkar 1964-cü ildə "Azərbaycan Respublikasının Xalq artisti" fəxri adına layiq görülüb.

Əyyub Haqverdiyev 1996-cı ilə qədər doğma teatrın səhnəsində çıxış edib. Ömrünün son günlərində gözləri tutulsa da, bir neçə dəfə "O olmasın, bu olsun" komediyasında Məşədi İbad rolunu oynayıb. Amma tamaşaçı bunu heç vaxt hiss etməyib ki, bu böyük sənətkarın gözləri görmür. Çünki o, ömrünü bu səhnədə keçirdiyi üçün onun hər qarışını əzbər bilirdi. Yeri gəlmişkən, Məşədi İbad rolunu oynamaq üçün 1960-cı illərdə Naxçıvana dəvət alan Xalq artisti, görkəmli səhnə ustası Lütfəli Abdullayev Əyyub Haqverdiyevin ifasında Məşədi İbadı görəndən sonra Bakıdan özü ilə gətirdiyi parik və saqqalı ona hədiyyə edərək deyib: "Əgər teatrda Əyyub kimi "Məşədi İbad" varsa, onda mənim bu səhnəyə çıxmağıma ehtiyac yoxdur". Əyyub Haqverdiyev isə bu parik və saqqalı öz oğluna, sənətinin davamçısı, Azərbaycan Respublikasının Əməkdar artisti Behruz Haxverdiyevə verib. Behruz da atasının yolunu davam etdirərək bu gün Naxçıvan teatrının səhnəsində bir-birindən fərqlənən obrazlar yaradıb. 12 yaşında atasının da oynadığı "Ölülər" tragikomediyasında rol alıb. "Əslində, mən zərgər olmaq istəyirdim, hətta atam məni öyrətmək üçün usta da tapmışdı" – Behruz belə deyir. Amma mən səhnəyə çıxandan sonra elə bil ki, hər şey dəyişdi. Atama aktyor olacağımı dedim. O isə sakitcə, – özün bilərsən, əgər bacaracaqsansa, ol. Bacarmasan, yadında qalsın, mən heç vaxt səni məcbur etmirəm, – dedi.

Behruz atasının, öz dövründə ölkə səviyyəsində tanınan bir sənətkar olan Əyyub Haqverdiyevin yolunu davam etdirə bildi. 1982-ci ildən səhnəyə qədəm qoyan gənc Haxverdiyev Hüseyn Cavidin "İblis" dramında Vasif, "Topal Teymur"unda Ağbuğa, İlyas Əfəndiyevin "Hökmdar və qızı"nda Əbülfət ağa, Georgi Xuqayevin "Mənim qayınanam" komediyasında Elbrus, Nəriman Həsənzadənin "Atabəylər" pyesində Ruz, Həmid Arzulunun "İtilənən xəncərlər" əsərində Yaşar, "Əlincə qalası"nda Rəşid, Yapalaq Murzo, Nəriman Nərimanovun "Nadir şah" faciəsində Rza xan kimi onlarla müxtəlif səpkili rollar oynayıb. "Mən nə qədər uğur qazansam, yenə də atamın səviyyəsində sənətkar olmaq istəmişəm. Onun sənət zirvəsini fəth etmək mənə nəsib olarsa, özümü xoşbəxt sanaram". Bu, 35 ildir ki, teatrda çalışan, hər bir işdə zəhməti olan, bütöv bir tamaşaçı nəslinin yaxşı tanıdığı oğul Haxverdiyevin etirafıdır.

Hələ ki Naxçıvan teatrının afişalarında bu gün də "Haqverdiyev" (Behruzun familiyası sənədlərdə səhvən Haxverdiyev yazıldığı üçün rəsmi olaraq soyadı belə yazılır) qeyd edilir. Bu isə o deməkdir ki, ömrünün 66 ilini səhnəyə həsr edən Əyyub müəllimin sənət ənənəsi yaşayır və davam edir.

**Səməd CANBAXŞIYEV**

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Boks Federasiyasının birgə təşkil etdiyi boks üzrə yeniyetmə, gənclər və kişilər arasında muxtar respublika birinciliyinə yekun vurulub.*

## Boks üzrə muxtar respublika birinciliyi başa çatıb



Olimpiya sistemi üzrə keçirilən və Beynəlxalq Boks Federasiyasının mövcud qaydalarına uyğun olaraq təşkil edilən birinciliyin məqsədi muxtar respublikada bu idman növünü təbliğ etmək və istedadlı dəri əlcək sahiblərini üzə çıxarmaqdan ibarət olub. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 25-ci ildönümünə həsr olunmuş yarışda 100-ə yaxın dəri əlcək sahibi mübarizə aparıb. Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən birinciliyin son günündə tamaşaçılar bir-birindən maraqlı final görüşlərinə şahidlik ediblər.

Yarışın yekun nəticəsinə əsasən, Hüseyn Hüseynov (35 kiloqram), Ümid Abbasov (40 kiloqram), Ülvü Süleymanov (45 kiloqram), Ayxan Qubuşov (50 kiloqram), Nadir Cəfərov (53 kiloqram), Kamran Allahverdiyev (57 kiloqram), Yenisey İmanov (60 kiloqram), İbrahim Cəfərzadə (64 kiloqram), Yuris Allahverdiyev (69 kiloqram) və Məhəmmədəli Bağırov (75 kiloqram) öz çəki dərəcələrində bütün rəqiblərinə qalib gələrək birinciliyin baş mükafatını qazanıblar.

Yarışın qalibləri Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Boks Federasiyası tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılıblar.

## Basketbol üzrə yoldaşlıq görüşü

***Naxçıvan şəhərindəki Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 25-ci ildönümünə həsr olunmuş basketbol üzrə yoldaşlıq görüşü keçirilib.***



Görüşdən öncə çıxış edən yaradıcılıq mərkəzinin direktoru Namiq Novruzov və Babək Rayon Uşaq-Gənclər İdman Məktəbinin direktoru Emin Hüseynov muxtar respublika idmanının inkişafı və uğurları, həmçinin keçirilən yarışın mahiyyəti barədə geniş məlumat veriblər.

Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi ilə Babək Rayon Uşaq-Gənclər İdman Məktəbinin birgə təşkil etdiyi görüşdə hər iki qurumun komandaları üz-üzə gəlib. Gərgin mübarizə şəraitində keçən görüşdə Babək basketbolçuları rəqiblərinə 64:38 hesabı ilə qalib gəliblər.

Sonda qalib komandanın idmançılarına təşkilatçıların diplomları təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

## Dəm qazı həyat üçün təhlükəlidir

***Havanın soyuması ilə əlaqədar yaşayış sahələrində vətəndaşlar tərəfindən müxtəlif növ qaz cihazlarından və sobalarından istifadə edilməsinə başlanılıb.***

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi bunu nəzərə alaraq qaz cihazları və qaz təsərrüfatı ilə bağlı təhlükəsizlik qaydalarının tələblərini bir daha istehlakçıların nəzərinə çatdırır.

Qaz təsərrüfatının mövcud olduğu sahələrdə yanğın, partlayış və zəhərlənmə kimi arzuolunmaz halların baş verməməsi üçün mülkiyyət formasından asılı olmayaraq, hər bir təşkilatın və vətəndaşın bir sıra qaydalara əməl etməsi zəruridir. Hər bir vətəndaş sənaye üsulu ilə istehsal olunmuş və Azərbaycan dilində təlimatı yazılmış qaz cihazından istifadə etməlidir. Cihazlarda təhlükəsizlik sistemi, qaz təzyiqi nizamlayıcısı, müəyyən səbəblərdən qaz kəsildikdə və təkrar verildikdə sistemi bağlayan qurğunun olması vacibdir. Qaz cihazlarının xətlərində özbaşına dəyişiklik etmək, təhlükəsizlik qurğusunu çıxarmaq, rezin şlanqla qaz xəttinin çəkilişinə yol vermək olmaz. Qaz cihazlarının quraşdırılması, yerinin dəyişdirilməsi və qaz xətlərinin çəkilişi yalnız bu sahə üzrə mütəxəssislər tərəfindən həyata keçirilməlidir.

Mənzilə daxil olduqda qaz iyi hiss edilərsə, işığı yandırıb-söndürmək, elektrik cihazlarını işə salmaq, siqaret çəkmək və açıq alovdan istifadə etmək qəti qadağandır. Otağın qapı və pəncərələri açılmalı və hava axını yaradılmalıdır. Yaşayış evində qazın sızmasını yoxlamaq üçün açıq alovdan istifadə etmək olmaz, bunun üçün yalnız sabun məhlulundan istifadə etmək lazımdır. Əgər qaz sızması aşkar olunarsa, o zaman qazın verilişini dayandırmaq və dərhal qaz istismarı idarəsinin ***(104)*** qəza xidmətinə xəbər vermək lazımdır. Təhlükəsizlik sistemi olmayan məişət qaz pilətəsinin üzərinə qazanı, çaydanı qoyduqda suyun səviyyəsi elə olmalıdır ki, su qaynadıqda daşmasın, belə ki, qaynayan su daşıb odluğu söndürə bilər. Bu isə qaz sızması ilə nəticələnər və partlayış baş verər.

Qaz cihazlarının istismarı zamanı əhalinin üzləşdiyi xoşagəlməz hadisələrdən biri də dəm qazı ilə zəhərlənmədir. Dəm qazı ilə zəhərlənmə daha çox hava təchizatı pis olan otaq, zirzəmi və qarajlarda, habelə standarta uyğun olmayan və kustar üsulla hazırlanan qaz sobaları və suqızdırıcılarının istismarından, həmçinin tüstü bacaları və borularının işlək vəziyyətdə olmaması səbəbindən baş verir.

Dəm qazı neftin, təbii qazın, kömürün, odunun və digər yanacaq məhsullarının natamam yanması nəticəsində əmələ gəlir. Dəm qazının yaranmaması üçün otaqlar tez-tez havalandırılmalı, tüstü boruları küləyin istiqaməti nəzərə alınmaqla quraşdırılmalı və tüstü borularının çıxışı tutulmamalıdır. Tüstü boruları və bacaları hər 2 aydan bir təmizlənməli, onların sazlığı daim yoxlanılmalıdır. Mətbəxdə qaz pilətəsi və suqızdırıcı quraşdırılarkən otağın həcmi nəzərə alınmalıdır. Yanma məhsullarının xaric olunmasına diqqət yetirilməli, pilətədən havalandırma sisteminə qədər olan məsafə 65 santimetrdən az olmamalı, qaz cihazlarının tüstü boruları digər məişət cihazlarının borularına qoşulmamalıdır. Qaz sobaları və suqızdırıcılarından tüstünün xaric edilməsi üçün standarta uyğun olmayan və tez qatlanan borulardan istifadə etmək olmaz. Bunun üçün yalnız düzaxımlı metal borulardan istifadə edilməli, soba ilə divar arasında 20-30 santimetr məsafə olmaqla, tüstü boruları 1,5 metr şaquli istiqamətdə qalxdıqdan sonra binaların dam örtüyündən 70 santimetr hündürlükdə quraşdırılmalıdır. Vanna otağında qazla işləyən suqızdırıcı cihaz quraşdırılmamalı, hava daxil olması üçün qapının aşağısında dəliklər açılmalı, nəfəslik açıq saxlanmalı, ventilyasiya kanalı daim işlək vəziyyətdə olmalıdır.

Dəm qazı rəngsiz və iysiz olduğundan zəhərlənmə hiss olunmadan baş verir. Zəhərlənmənin ilkin əlamətləri kimi başağrısı, gözlərin yaşarması, qulaqlarda küyün olması, ürəkbulanma, baş gicəllənmə, dodaqların göyərməsi, qusma, quru öskürək, təngnəfəslik, yuxuya meyillilik və yuxuda sayıqlama halları müşahidə olunur, dəri solğunlaşır. Əgər həmin insan dəm qazı ilə nəfəs almağa davam edərsə, onun tənəffüsü çətinləşir, qıcolmalar baş verir. Tənəffüs mərkəzinin iflic olması nəticəsində nəfəsalma dayanır. Dəm qazı ilə zəhərlənmiş insanı dərhal təmiz havaya çıxarmaq, onu sıxıcı paltarlardan azad etmək, bütün bədənini aktiv hərəkətlərlə ovuşdurmaq, alnına və sinəsinə soyuq kompres qoymaq lazımdır. Zərərçəkmişin huşu özündədirsə, ona çay içirtmək məsləhətdir. Əgər huşunu artıq itiribsə, onun burnuna naşatır spirtində isladılmış pambıq yaxınlaşdırmaq və ya sirkə iylətmək lazımdır. Zərərçəkmişin tənəffüsü dayanıbsa, ona mütləq süni nəfəs verilməli və təcili tibbi yardım çağırılmalıdır.

*Qazla əlaqədar təhlükəsizlik qaydalarını hamı bilməli və ona ciddi əməl etməlidir. Unutmamalıyıq ki, bu qaydalara əməl etməməklə biz zəhərlənmə, yanğın, partlayış təhlükəsi yaradır, özümüzü, ailə üzvlərimizi və ətrafdakı insanları bədbəxt hadisələrə düçar edirik. Hər hansı bir xoşagəlməz hadisə baş verərsə, Fövqəladə Hallar Nazirliyinin* ***101*** *və* ***112*** *qaynar telefon xətlərinə zəng etməyi unutmayın.*

**Mirtaleh SEYİDOV**
***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşı***


### "Naxçıvan Tikinti Materialları" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə!

23 dekabr 2016-cı il tarixdə saat 11[00]-da "Naxçıvan Tikinti Materialları" ASC-nin səhmdarlarının ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdə duran məsələlər:

*1. Reqlamentin təsdiqi*
*2. Cəmiyyətin idarə heyəti sədrinin yenidən seçilməsi*
*3. Digər məsələlər.*

Ümumi yığıncaq 23 dekabr 2016-cı il tarixdə saat 11[00]-da Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, bina 7-də keçiriləcəkdir.



ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 887